Palitra

# Firudin bəy Köçərli - 150

## Əziz Şərif: "Firudin bəyin arxivi XX əsr ictimai həyatımızın güzgüsüdür"



*Tanınmış ədəbiyyatşünas Firidun bəy Köçərlinin anadan olmasının 150 illiyi tamam olur. Əziz Şərifin Ədəbiyyat və İncəsənət arxivindəki 255 saylı fondunda Firidun bəylə bağlı yazısı onun yaradıcılığı haqqında təəssürat yaradır. Yazını redaksiyaya arxivin direktoru Maarif Teymur təqdim edib. Bildirək ki, Əziz Şərifin Firidun bəy haqqındakı yazısı tam halda ilk dəfə "Xalq Cəbhəsi" qəzetində işıq üzü görür.*

*I yazı*

Azərbaycan ədəbiyyatı və mədəniyyəti tarixində Firudin bəy Köçərli əhəmiyyətli yer tutur. Müəllim, ədib, tənqidçi, alim, ictimai xadim kimi Firudin bəyi bütün savadlı Azərbaycan yaxşı tanıyır və ona qarşı dərin hörmət bəsləyirdi. Onun azərbaycanca və rusca yazıb nəşr etdiyi məqalə və kitabçaları hamı maraqla oxuyur və yüksək qiymətləndirirdi. Bütün ömrü boyu bu nəcib və fədakar mədəniyyət fədaisi Azərbaycan ədəbiyyatına aid material axtarır, tapır, toplayır və tədqiq edirdi. Firudin bəyin vaxtsiz və faciəli ölümündən sonra "Azərnəşr" 1925 və 1926-ci illərdə onun tərtib etdiyi iki qalın cilddən ibarət olan və bu gün də əhəmiyyətini saxlayan ədəbi materiallarını çap etdirib.

Şəxsən mən özüm Firudin bəy Köçərlini dəfələrlə görmüşdümsə də, onunla yaxından tanış deyildim. Atam isə onu tanıyır və haqqında mənə çox danışmışdı. Atamın arxivində Firudun bəyin 1911-ci ildə Tiflisdə çap edilmiş "Mirzə Fətəli Axundov həzrətlərinin təvəllüdündən 100 il mürur etmək münasibəti ilə yazılmış risaleyi-yadigarənə"si qiymətli bir yadigar olaraq qalır ki, bu kitabçanın baş səhifəsində müəllifin xətti ilə "Hümmətli və marifpərvər bərədərim Qurbanəli Şərifzadə cənablarına müəllifi tərəfindən töhfeyi- mühəqqəranədir. F. Köçərli, 23 noyabr 1911" sözləri yazılmışdı.

Bu kitabça Mirzə Fətəlinin yubileyi ərəfəsində buraxılıb. O zaman yazıçının anadan olduğu il səhv olaraq 1811-ci il hesab edilirdi. Buna görə də onun yüz illik yubileyi 1911-ci ildə qeyd edilirdi. Gündəliyimdə yazılmış məlumata görə, təntənəli yubiley gecəsi Tiflisdə gürcü əyanları cəmiyyətinin teatrında dekabrın 5-də keçirilirdi. O axşam teatrda hazır olanlardan Cəlil Məmmədquluzadə ailəsi ilə, Ömər Faiq Nemanzadə, Firudin bəy Köçərli yadımda qalıblar. Atam da yubiley gecəsində iştirak edirdi. Onun arxivində o günlərdə "İrşad" qəzeti üçün yubiley gecəsi haqqında yazdığı məqalənin qaralaması qalıb ki, bu sənəddən istifadə edərək bəzi təfsilatı oxuculara xatırlatmaq istəyirəm.

Teatr salonu tamaşaçılarla dolu idi. Mirzə Fətəlinin qızı Nisə xanım da lojaların birində əyləşmişdi. Səhnə böyük yazıçının rəsmi ilə bəzədilmişdi. O zaman Qori şəhərində yaşayıb müəllimlər seminariyasında dərs verən Firudin bəy Köçərli səhnəyə çıxıb Axundovun rəsminə təzim edəndən sonra Abbas ağa Qaibovun yubileyə həsr etdiyi şeirini oxumuşdu. Yubiley münasibəti ilə alınmış teleqram və teleqramlar oxunandan və Firudin bəy Köçərlinin dərin məzmunlu məruzəsi və müxtəlif qonaqların təbrik nitqləri alqışlanandan sonra Tiflis artistlərinin iştirakı ilə Mirzə Fətəlinin "Molla İbrahim Xəlil kimyagər " komediyası və Əbdürrəhimbəy Haqverdiyevin ona həsr etdiyi "Xəyalat" pyesi göstərilmişdi. Yubiley son dərəcə təntənəli və maraqlı keçmişdi. Səhv etmirəmsə, Firudin bəy Köçərli ilə mənim ilk görüşüm də həmin yubiley iclasında baş tutdu. Qocaman müəllim və ədibin mənə göstərdiyi mehribanlığı bu gün də qəlbimi sevinclə döyündürür.

Aradan illər keçdi. Mən Tiflisdə orta məktəbi qurtarıb ali təhsil dalınca Moskvaya yollandım. Bu illərdə yenə Firudin bəy Köçərli ilə gah Tiflis teatrında, gah "Molla Nəsrəddin" jurnalının redaksiyasında, gah da atam Tiflisə gələndə onun otağında təsadüfi görüşlərimiz olurdu. Hər dəfə Firudin bəylə atamın arasındakı səmimi və möhkəm dostluq ifadələrini şahidi olur və bununla fəxr edirdi. Firudin bəy Köçərli Qurbanəli Şərifzadə ilə səmimi dost imiş ki, 1917-ci il 4 (17) iyunda Şərifzadə vəfat edəndə Qoridən Bakıya "Açıq söz" qəzetinin redaksiyasına göndərdiyi "İzhari təəssüf" sərlövhəli məktubunu bu sözlərlə başlamışdı: "Əziz və hörmətli bərədərimiz Qurbanəli Şərifzadənin gözləmədiyimiz bir hal və zamanda vəfatı xəbəri bizi böyük yasa düçar elədi". "Açıq söz" qəzetinin 1917-ci il 15 iyun tarixli 498-ci nömrəsində çap edilmiş bu məktubun ictimai və tarixi cəhətdən müəyyən əhəmiyyətinə görə və ədibimizin qələmindən çıxmış son əsəri olduğu üçün onu bütünlükdə buraya köçürməyi lazım bildim. Yuxarıda göstərilən ilk cümlədən sonra Firudin bəy yazırdı: "Mərhum hürriyyət və ədalətin ən səmimi dostlarından biri olduğu üçün onun bu hürriyət əsərində tərki-həyat şayani təəssüfdür. Azadi kəlam və əfkar onun müqəddəs arzularından birisi idi. O heç bir vaxt da azadə danışıb rəy və fikirlərini açıq və aydın söyləməkdən çəkinməzdi. Millətimizin ruhu, həyatı, səadəti və mənəvi varlığı Şərifzadənin şərif vücudunda müşahidə olunmaqda idi. Şərifzadənin məntiq üzrə söylədiyi şirin söhbəti hər kəsi maraqlandırırdı. Mərhumun gözəl süfətlərindən birisi də onun ədəbiyyatımızın tərəqqisi yolunda hümmət etməsi idi. Harda bir ədib və şair sədası eşitsəydi, onu arayıb ziyarət etməyi və onunla dostluq və yoldaşlıq əlaqəsini bağlamağı özünə borc bilərdi. Məşədi Qurbanəli kimi vücudların fovt olüb getməsi millət üçün böyük bir yasdır. Vay o millətlərin halına ki, onların içindən M.Qurbanəlilər rəhmət edirlər və yerlərinə başqaları ərsəyə yetişmirlər. F.Köçərli, 12 iyun 1917, Qori"

***

Aradan yenə illər keçdi. Zaqafqaziya şuralaşdı. Firudin bəy Köçərlidən yadigar qalan Azərbaycan ədəbiyyatının tarixinə aid materiallar çap edildi. Ədəbiyyatşünaslıq işləri canlandı. Mən də öz qüvvətim daxilində bu sahədə çalışmaqdaydım. Bu uzun və məzmunlu tarixin qısası budur ki, 1936-cı ilin noyabr ayında Tiflisdə Mirzə Fətəli Axundovun yenə bir arxivini tapmaq mənə qismət oldu. Bu arxivdə olduqca qiymətli materiallar, o cümlədən də Puşkinə həsr etdiyi və o günə qədər yalnız ruscaya tərcüməsi ilə şöhrət tapmış poemasının avtoqrafı tapıldı. Bu tapıntı haqqında mənim gündəliyimdə və saxladığım materiallarda müfəssəl məlumat var. Kazım Ələkbərinin sədrliyi ilə bir heyət tərtib edildi və arxiv materiallarını yazıçının nəvəsindən alıb Bakıya gətirmək üçün Tiflisə göndərildi. Heyətə Məmməd Səid Ordubadi və Vəli Xuluflu daxil idi. Mən də heyətin katibi idim. Biz dekabr ayında Tiflisə gedib materialları siyahıya götürdük və Bakıya gətirib Nizami adına Ədəbiyyat İnstitutuna təhvil verdik.Bu hadisəyə aid rəsmi və qeyri-rəsmi material bu günədək məndə qalıb.

Həmin günlərdə şəxsi həyatımda da müəyyən dəyişikliklər əmələ gəldi: Tiflisdən Bakıya köçüb "Azərnəşr"də təzə təşkil edilmiş şöbəyə baş redaktor təyin edildim. Bu şöbə Azərbaycan ədəbiyyatının rus dilində nəşri ilə məşğul idi.

1937-ci ilə məxsus gündəliyimdə bu sətirləri buraya köçürməklə əsas məsələyə keçirəm : "12 yanvar. Axşam saat 7-də Həmidə xanımın yanına getdim ki, onunla birlikdə Firudin bəy Köçərlinin evinə gedək. Onun arxivinə baxmaq üçün Firudin bəyin xanımı bunu Həmidə xanımdan xüsusi xahiş eləmişdi. Getdik. Həmidə xanım məni Badsəba xanıma təqdim etdi. Bu, mədəni xanımdır. Firudin bəy kimi adamın təsiri dərhal duyulur. Mənimlə çox mehriban və eyni zamanda ciddi danışırdı. Tanış olan kimi Mirzə Fətəlinin təzə tapılmış arxivindən söhbət açdı və bu arxivi üzə çıxardığım üçün məndən razılıq etdi. Sonra öz ərinin arxivindən danışmağa başladı. Otağın bir küncündə duran iri sandığı nişan verərək Badsəba xanıma dedi: "Şübhə etmirəm ki, bu sandıqda olan yazılar da xalqımıza gərək olar. Firudin bəy bütün ömrü boyu axtarıb tapdığı yazıları, kitab-dəftəri burdadır. Bu sandığı qorxa-qorxa, əsəəsə bu günə kimi saxlamışam, heç kəsə burdan bir vərəq də verməmişəm. İndi sizin vasitənizlə mən bu sandığı hökumətə vermək istəyirəm. Sizin atanızı çox görmüşəm və yaxşı tanıyıram. Bu sandıqdan onun da bir dəstə məktubu var".



Badsəba xanım sandığı açıb ordan sapla bağlanmış bir dəstə məktub çıxartdı, mənə uzatdı. Üzərində Firudin bəyin xətti ilə ərəb əlifbasında yazılmışdı: "Məktubati Qurbanəli Şərifzadə".

Sandığın içindəki yazıları bir-bir gözdən keçirməyə başladıq. İlahi, burda nələr var idi! "Molla Nəsrəddin", Sabir, Səhhət, İsmayıl bəy Qasprinski, Ömər Faiq, Əlimərdanbəy Topçubaşov, Salman Mümtaz və daha kimlərin yüzlərlə məktubları səliqə ilə dəstələnmişdi. Məktublardan başqa müxtəlif əlyazmaları - şeir, tərcümə, atalar sözü, tapmaca, nağıl, dastan, ədəbi parça, saysız-hesabsız bu kimi əsərlər!... Bunları açıb lap elə üzdəncə gözdən keçirmək üçün neçə gün lazım idi. Firudin bəyin bu arxivi XX əsr ictimai həyatımızın güzgüsüdür".

UĞUR